

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 9 aprel 2025-ci il №24 (2933) https://mod.gov.az Qiymətı 30 qəpik


***Ermənistanın ərazi iddiasına görə başladığı ədalətsiz, işğalçılıq müharibəsi genişlənsə də, beynəlxalq təşkilatlar buna ciddi münasibət bildirmirdi. BMT-nin Təhlükəsizlik Şurası da, ATƏT-in Minsk qrupuna daxil olan dövlətlər də bu müharibənin dayandırılması istiqamətində təsirli tədbirlər görmürdü, bəlkə də görmək istəmirdi. Havadarlarının siyasi və hərbi dəstəyindən bəhrələnən işğalçı dövlət Azərbaycanın ərazilərini işğal edirdi. Ərazi iddiası olan bu müharibə təkcə Azərbaycanın deyil, dünyanın da nizamını pozmuşdu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli bəyanatı Ermənistanı da, onun havadarlarını da ciddi düşündürməli idi: "Azərbaycan heç vaxt imkan verməz ki, bizim ərazilərimizdə ikinci qondarma erməni dövləti yaradılsın!"***




Bunları siz də bilirdiniz, Azərbaycan əsgəri. Bilirdiniz ki, ordu hissələrimiz 2016-cı ilin Aprel döyüşlərində mühüm qələbələr qazandı, bu qələbələr Böyük Qələbənin ilkin işığı idi. O işıq tarixin dünyünü açan işıq olacaqdı. O işıq sizdən əvvəl xidmət edənlərin də döyüş əzminin, qələbə ruhunun işığı idi. Bu əzm döyüş hazırlığının əzmi kimi bu ruh döyüş qabiliyyətinin ruhu idi. Günnüt zəfəri də bu əzmlə qazanılmışdı, Tovuz döyüşlərində də bu əzm, bu ruh əsgərlərimizin döyüş bayrağı idi. Düşmən "Qisas" əməliyyatında da Azərbaycan əsgərinin qarşısında dayana bilmədi, geri çəkildi. Ancaq ermənilıyindən əl çəkmirdi.

2020-ci il sentyabrın 27-də də yeni ərazilər işğal etmək niyyəti ilə hücum etdi. Hücumun qarşısı qətiyyətlə alındı, Ali Baş Komandan əks-hücum əmri verdi. Bu əmr İkinci Qarabağ müharibəsinin başlanğıc əmri kimi tarixləşdi. Siz onda məktəbli idiniz. Yuxarı sinif şagirdləri yaşlarının azlığına görə təəssüflənirdilər. Siz də hamı kimi hər axşam Ali Baş Komandanın xalqa müraciətini düşüncələrinizə hopdururdunuz: "...Dünyada heç bir qüvvə bizi haqq yolundan döndərə bilməz. Dünyada heç bir ölkə bizim iradəmizə təsir edə bilməz... Biz haqq yolundayıq, biz qalib gəlirik, biz zəfər çalırıq və biz öz torpaqlarımızı geri alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik!"

(Ardı 3-cü səhifədə)

## "Milli Müdafiə Universiteti təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlığını təmin edir"

Güclü ordunun formalaşmasında hərbi elm və təhsil sisteminin xüsusi rolu var. Hərbi təhsil Azərbaycan Ordusunun qarşısında qoyulan vəzifələri yüksək peşəkarlıqla yerinə yetirən kadrların hazırlanması fəaliyyətidir. Milli Müdafiə Universitetinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitut, Hərbi Tibb Fakültəsi, Hərbi Kolleclər, Cəmşid Naxçıvanski və Heydər Əliyev adına Hərbi Liseylərdə tədris olunan tədris prosesindən məlumat almaq üçün Milli Müdafiə Universitetinin nümayəndəsi Orxan Qarayev ilə həmsöhbət olduq.

(Ardı 4-cü səhifədə)

## **Səfir:** Ermənistan işğal dövründə Azərbaycan torpaqlarında 1,5 milyondan çox mina basdırıb

Ermənistanın Azərbaycana qarşı mina terroru hələ də davam edir. İşğaldan azad olunmuş ərazilərimizdə ötən 8 gün ərzində 4 mina hadisəsi qeydə alınıb. Bu, işğalçının 30 ildən artıq müddətdə həyata keçirdiyi mina siyasətinin hələ də davam etdiyini göstərir.

(Ardı 2-ci səhifədə)

## Azərbaycan Ordusunda döyüş atışlı taktiki təlim keçirilib



2025-ci ilin hazırlıq planına uyğun olaraq, müasir döyüş üsullarına əsasən, Azərbaycan Ordusunda yeni əməliyyat konsepsiyasının tətbiqi ilə real döyüş şəraitinə uyğunlaşdırılmış taktiki təlim keçirilib.

(Ardı 2-ci səhifədə)

## Hərbi vəzifəlilərlə növbəti təlim toplanışı başlayıb

Müdafiə naziri tərəfindən təsdiq olunmuş 2025-ci ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı başlayıb.

(Ardı 6-cı səhifədə)



## "Əsgərlərimiz üçün dadlı, keyfiyyətli yeməklər hazırlayırıq"



Son illərdə Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən genişmiqyaslı islahatlar hərbi qulluqçularımızın məişətində özünü göstərir. Vətənimizin keşiyində dayanan hərbçilərimiz üçün bölmələrdə ən müasir səviyyədə sosial şərait yaradılır, onların nümunəvi xidmət etmələri üçün lazımi tədbirlər görülür.

(Ardı 3-cü səhifədə)

## Bu tarixlər unudulmayacaq!

Dövlətlər yaranandan, araya sərhədlər düşəndən dünyanın gedişini dəyişən hadisələrə tarixi hadisələr deyilib. Tarixi hadisələr nizam da pozur, nizam da yaradır. Nizamı pozan da, nizama düzən də müharibədi. Yüz illərdi müharibələr torpağa görə başlayıb - müharibə bir dövlət başqa bir dövlətin ərazisini öz ərazisinə qatmaq niyyətinə düşəndə başlayır. Başlayır və işğalçılıq müharibəsi kimi tarixləşir. Bu tarixləşmənin sonunda zamanın gerçək ironiyası eşidilir. Həmişə belə olub...

(Ardı 6-cı səhifədə)

## General-polkovnik Zakir Həsənov: "Azərbaycan Ordusu Ali Baş Komandanın etimadını hər zaman doğruldub, bundan sonra da doğruldacaqdır"

*Aprelin 5-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, videobağlantı formatında keçirilən iclasda nazir müavinləri, qoşun (qüvvə) növləri komandanları, baş idarə, idarə və xidmət rəisləri, hərbi birlik və birləşmə komandirləri, eləcə də Milli Müdafiə Universitetinin və tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, həmçinin ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canını fəda etmiş şəhidlərimizin xatirələri bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ordu quruculuğunun ölkəmizdə prioritet məsələlərdən biri olduğunu qeyd edən müdafiə naziri bölmələrin xidməti-döyüş fəaliyyətlərinin təkmilləşdirilməsi, eləcə də döyüş qabiliyyətinin daha da artırılması ilə bağlı Ali Baş Komandanın ordu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb.

Müdafiə naziri bildirib ki, tarixi Zəfərin sülh danışıqlarına yol açdığını qeyd edən Ali Baş Komandan Azərbaycan Ordusunun xüsusilə 44 günlük Vətən müharibəsi və sonrakı döyüş əməliyyatlarında nümayiş etdirdiyi peşəkarlığı yüksək qiymətləndirib, bununla da qarşımızda daha məsuliyyətli vəzifələr qoyub.

Müşavirədə Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti, o cümlədən son günlər qarşı tərəfin bölmələrimizi mütəmadi olaraq atəşə tutması, mövqelərimiz üzərində pilotsuz uçuş aparatları və dronlarla kəşfiyyat xarakterli uçuşlar həyata keçirmə cəhdləri geniş müzakirə edilib. Nazir Azərbaycan Ordusu bölmələrinin hər an istənilən təxribata qarşı çevik reaksiya verməyə hazır olması barədə aidiyyəti vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub, döyüş növbətçiliyinin təşkili zamanı ayıq-sayıqlığın artırılmasının vacibliyini vurğulayıb.

Daha sonra Azərbaycan Ordusunda aparılan uğurlu islahatların müsbət nəticələrindən danışılıb, cari il ərzində həyata keçirilən və planlaşdırılan tədbirlər müzakirə edilib.

Qoşunların döyüş imkan və qabiliyyətlərinin inkişaf etdirilməsinin vacibliyini vurğulayan nazir müasir döyüş təcrübəsi nəzərə alınmaqla keçirilən hərbi təlimlərin intensivliyinin qorunub saxlanılmasını və texnoloji yeniliklərin tətbiqi ilə keyfiyyətinin daim artırılmasını tapşırıb. Müasir informasiya texnologiyaları vasitələrinin kibertəhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən fəaliyyətlərlə bağlı göstərişlər verib.

Hərbi təhsil sistemində əlçatanlığın, əhatəliliyin və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə tətbiq edilən yeni forma və metodlar nəzərə alınmaqla bölmələrin peşəkar kadr heyəti ilə komplektləşdirilməsinə xüsusi diqqət yetirilməsinin əhəmiyyəti qeyd olunub.

Nazir müxtəlif ixtisaslı hərbi vəzifəlilərin cəlb edildiyi təlim toplanışlarında onların bilik və bacarıqlarının artırılması, həmçinin silahlanmaya yeni qəbul edilmiş silah və texnikadan istifadə qaydalarının öyrədilməsi üzrə vəzifəli şəxslər qarşısında tapşırıqlar qoyub.

Şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, mənəvi-psixoloji hazırlığı, xüsusilə kəskin relyefli ərazilərdə dislokasiya olunan bölmələrin maddi-texniki təminatı, keyfiyyətli qidalanmasının təşkili, həmçinin təhlükəsizlik qaydalarına ciddi əməl edilməsinə nəzarətin gücləndirilməsi barədə tələblər bir daha komandir heyətinə çatdırılıb.

Müddətli həqiqi hərbi xidmətə yeni çağırılan gənc əsgərlərin fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, onların adaptasiya prosesinə həssaslıqla yanaşılması, eləcə də sağlamlıqlarının diqqət mərkəzində saxlanılması ilə bağlı müvafiq göstərişlər verilib.

Hərbi qulluqçularla mütəmadi olaraq maarifləndirici tədbirlərin keçirilməsi və icra edilən fəaliyyətlərin nizamnamələrin tələblərinə uyğun tənzimlənməsinin vacibliyi vurğulanıb.

Qoşunların mövsümə uyğun bütün növ ehtiyatlarla təmin edilməsi, silah və texnikanın yaz-yay mövsümü istismarı rejiminə keçidinə hazırlıq işləri ilə bağlı müvafiq tapşırıqlar verilib.

Müşavirədə, həmçinin azad edilmiş ərazilərdə təhlükəsizlik qaydalarına əməl olunmaqla aparılan mühəndis tədbirlərinin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Sonda general-polkovnik Z.Həsənov Azərbaycan Ordusunun Ali Baş Komandanın etimadını hər zaman doğrultduğunu, bundan sonra da doğruldacağını əminliklə ifadə edib.

## Səfir: Ermənistan işğal dövründə Azərbaycan torpaqlarında 1,5 milyondan çox mina basdırıb

(Əvvəli 1-ci səhifədə)

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev bu ölkənin paytaxtı Tbilisidə "Qərbi Azərbaycan: Geri qayıtmaq hüququ və ədalət, soyqırımı və minalardan təmizləmə" mövzusunda keçirilən beynəlxalq konfransda bildirib.

Diplomat deyib ki, işğal dövründə Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını sistemli şəkildə minalarla çirkləndirib. Hazırda da bu minalar vətəndaşlarımızın həyatına son qoyur. 2020-ci ilin noyabrından indiyədək minaların partlaması nəticəsində 70 nəfər həyatını itirib, 311 nəfər ağır yaralanıb.

Səfir vurğulayıb ki, ilkin hesablamalara görə, Azərbaycan torpaqlarına Ermənistan tərəfindən basdırılmış minaların sayı 1,5 milyondan çoxdur. Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş 5-ci ölkədir. Ermənistanın işğalı zamanı ərazilərimizdə 1 milyon 166 min 702 hektar ərazinin minalandığı güman edilir. Bu ərazilərin 211 min 800 hektarı yüksək, 954 min 902 hektarı isə orta səviyyəli çirklənməyə məruz qalıb. İndiyə qədər 140 min hektardan çox ərazi minalardan təmizlənib. Minatəmizləmə işlərinə 349,1 milyon dollar vəsait xərclənib ki, bunun da yalnız 16,1 milyon dolları beynəlxalq mənbələrdən daxil olub.

Diplomat diqqətə çatdırıb ki, minatəmizləmə işlərini başa çatdırmaq üçün ümumilikdə 25 milyard ABŞ dolları tələb olunur. Bu işləri isə 30 ilə yaxın bir müddətdə yekunlaşdırmağın mümkünlüyü təxmin edilir.

## Azərbaycan Ordusunda döyüş atışlı taktiki təlim keçirilib







(Əvvəli 1-ci səhifədə)

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Nazirliyin digər rəhbər heyəti döyüş atışlı təlimin gedişini izləyib.

Müdafiə nazirinə məruzə olunub ki, təlimə cəlb edilən müxtəlif təyinatlı pilotsuz uçuş aparatları ilə ərazinin kəşfiyyatı aparılır, şərti düşmən hədəflərinin dislokasiyası və zirehli texnikanın hərəkəti barədə məlumatlar operativ şəkildə döyüş idarəetmə mərkəzinə ötürülür.

Müdafiə Nazirliyi xəbər verir ki, ssenariyə əsasən, hücumdan əvvəl artilleriya bölmələri və aviasiya vasitələri ilə şərti düşmənin cəmləşmiş ehtiyatları və canlı qüvvəsinə zərbələr endirilib, minalanmış ərazilərdən keçidlərin açılması təmin edilib.





Təlim zamanı helikopterlər vasitəsilə şəxsi heyət təxliyə edilib, şərti düşmən kolonu pusquya salınaraq zərərsizləşdirilib, həmçinin dayaq məntəqələri ələ keçirilib.

Qeyd edək ki, taktiki təlimin məqsədi müasir döyüş üsulları nəzərə alınmaqla hazırlanmış yeni əməliyyat konsepsiyasına uyğun komandirlərin çevik qərar qəbuletmə qabiliyyətinin artırılması, qarşılıqlı uzlaşma şəraitində bölmələrin idarə edilməsi, eləcə də nəzəri və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

# Heydər Əliyev adına Hərbi İnstitutda NATO proqramı çərçivəsində tədbirlər keçirilir







Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda NATO-nun "Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı" (DEEP) çərçivəsində "Müəllimlərin təkmilləşdirilməsi" treninqi və "Hərbi dənizçilik sahəsi üzrə ingilis dilində radioəlaqə" mövzusunda seminar keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, Milli Müdafiə Universitetinin (MMU) və tabeliyində olan xüsusi təyinatlı təhsil müəssisələrinin müəllim və zabit heyətinin iştirakı ilə keçirilən tədbirlər "Fəal Təlimdə Qiymətləndirmə" modulunun üçüncü mərhələsini əhatə edir.

Tədbirlərin məqsədi iştirakçıların pedaqoji bacarıqlarını, tədris metodlarını inkişaf etdirmək, tədrisin keyfiyyətini daha da artırmaq və beynəlxalq standartlara uyğunlaşdırmaqdır.

NATO proqramı çərçivəsində keçirilən tədbirlər aprelin 11-dək davam edəcək.

## Xidmətimiz dövlətə, dövlətçiliyə, Hərbi Anda sədaqətimizdir

(Əvvəli 1-ci səhifədə)

Sən onda əsgər adı alacağın günə yol gəlirdin. Səndən əvvəl xidmət etmiş əsgərlərin davamçısı kimi, tarixi Zəfər qazanmış qəhrəmanların davamçısı kimi, şəhidlərimizin döyüş yolunun davamçısı kimi. Bu gün azərbaycançılığın qazandığı Zəfərin hüdudlarında xidmət edirsiniz. Müharibə vaxtı yaralanmış torpaqların qaysaqladığını da görürsən, dağda-daşda güllə, qəlpə izlərini də.

Əks-hücum əməliyyatı kimi başlayan müharibəni əsgərlərimizin qələbə ilə başa çatdıracağını xalqımız da bilirdi. Sizin evinizdə də bu haqda söhbətlər olurdu. Bu söhbətləri uşaq marağı ilə dinləyirdiniz, yeniyetmə istəyi ilə qürurlanırdınız, cavan niyyəti ilə döyüşlərə can atırdınız. Düşmən döyüşlərdə ağır itkilərə məruz qalanda, döyüşçü qardaşların düşmənə ağır məğlubiyyətlər yaşadanda, Qələbənin döyüşçülərinə ruhən deyirdiniz ki, qoluna qüvvət, əsgər qardaşım! Siz düşmənin bütün hərbi qulluqçularını məhv edəcəksiniz, qələbənin əsgəri olacaqsınız!

Döyüşlər başlayanda bir qədər müqavimət göstərən düşmənin istehkamları dağıdıldı. Bu, onun məğlubiyyətinin başlanğıcıydı. Sonrakı döyüşlərlə geri çəkilməyə məcbur edilən düşmən neçə-neçə strateji əhəmiyyətli yüksəklikdən, kəndlərdən, qəsəbələrdən, şəhərlərdən uzaqlaşdırıldı. İşğaldan azad edilmiş torpaqlarımızda bayrağımız dalğalandı. Bunlar qələbə ruhunun kükrəyişiydi. Bunlar ordumuzu, xalqımızı, dövlətimizi Qələbəyə yaxınlaşdırırdı, sizi - hərbi xidmətə.

Müəlliminiz "Ordumuz əks-hücum əməliyyatını ədalətli müharibə kimi davam etdirir, bu müharibə Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcək!" deyəndə nələr düşündüyünüzü hərbi xidmətin ilk günlərində əsgər yoldaşlarınıza danışmışdınız. Onda bilmişdiniz ki, həmin günlərdə - Vətən müharibəsində hamınız eyni duyğuları yaşayırmışsınız. İndi eyni istəklərlə, Vətənə eyni sevgilərlə xidmət edirsiniz. Siz Vətənə Vətən boyda sevginizlə xidmət edirsiniz...

Vətən müharibəsi ordu-xalq münasibətlərini daha da mətinləşdirmişdi. Şagird olsanız da, bunu görürdünüz. Siz bu dərklə çağırışçı yaşına yaxınlaşırdınız. Döyüş bölgəsində siz yaşda uşaqlar da döyüşçülərlə görüşə can atırdılar, "Əlim döyüşçü əlinə dəysin, döyüşçüdən üç-dörd kəlmə eşidim, bəsimdi, elə bilərəm mən də döyüşlərdəyəm..." - deyirdilər. Siz yaşda uşaqlar döyüş bölgəsində döyüşə gedən maşınları uğurlayırdı, yollarda şanlı bayrağımız dalğalanırdı. Siz də eşidirdiniz ki, analar bütün döyüşçüləri öz oğlu bilirlər. Onda siz döyüşənlərin hamısına qardaş deyirdiniz. İndi hərbi xidmətdəsiniz. İndi məktəblilər sizə qardaş deyirlər. Qaliblərin davamçısısınız axı!..

Sizin səsinizi hamı eşidir, Azərbaycan əsgəri: Vətənə Vətən boyda bir sevgi ilə xidmət edirik. Xidmətimiz dövlətə, dövlətçiliyə, Hərbi Anda sədaqətimizdir.

**"Azərbaycan Ordusu"**

*Məişət*

# "Əsgərlərimiz üçün dadlı, keyfiyyətli yeməklər hazırlayırıq"



(Əvvəli 1-ci səhifədə)

"N" hərbi hissəsinin müasir şəraiti, şəxsi heyətin yüksək əhval-ruhiyyəsi onu deməyə əsas verir ki, hamı burada yaradılan şəraitdən məmnundur və onlar belə mühitdə xidmət etməkdən qürur duyurlar.

Nahar fasiləsində fürsətdən istifadə edib əsgər yeməkxanasına yollandıq. Geniş və işıqlı zalda əsgərlərin nahar etməsi üçün bütün şərait yaradılıb. Yeməkxanaya daxil olan Vətən müdafiəçilərimiz baş geyimini çıxarır sıra ilə aşpazlara yaxınlaşırdılar. Hər kəsə növbə ilə yeməklər çəkilirdi.

Yeməkxana növbətçisi gizir Hafiz İsmayılov günün menyusu və qida rasionu ilə bağlı bizi tanış etdi. "Təcrübəli aşpazlarımız tərəfindən müasir soyuducu avadanlıqlar vasitəsilə müxtəlif kameralarda və müvafiq temperaturlarda qorunub saxlanılan ərzaqlardan gündəlik normaya əsasən yeməklər hazırlanır. Hazırlanan yeməklərdə milli xörəklərə üstünlük verilir", - gizir dedi.

Yeməkxana rəisi, həmçinin qeyd etdi ki, mətbəxdə çalışan işçilər ixtisas tələblərinə cavab verməli, lazımi norma və qaydaları bilməlidirlər. "Bir əsgər üçün ərzaq payı norması əsas götürülərək gigiyena qaydalarına, yeməklərin hazırlanmasında istifadə olunan ərzaq və ədviyyatların miqdarına xüsusi önəm verilir".

İmkan tapıb əsgərlərimizlə həmsöhbət olduq, hazırlanan yeməklərin keyfiyyəti haqqında onların özlərindən maraqlandıq.

- Doğrudan da, xidmət şəraitimiz ürəkaçandır, - deyə əsgər Malik Abdullayev hər dəfə olduğu kimi, bu gün də iştahla nahar etdiyini bildirdi. "Burada bizə milli mətbəximizdən ləzzətli xörəklər, yüksək keyfiyyətli ərzaqlardan bişirilir, mövsümə uyğun verilən salatlar və şirələr lap ürəyimizcədir".

- Hər şey yaxşıdır, - deyə digər əsgər Fəqan Ələkbərli söhbətimizə qoşuldu. - Hər gün isti yeməklər hazırlanır, salatlar, meyvə şirələri verilir. Həvəslə, iştahla nahar etdiyimiz kimi, ürəklə də xidmət edirik.

Aşpazlarımızla da görüşdük. Onların hər biri tərtəmiz ağ xalatdadır, üz-gözlərindən əsgərlərimizə olan sevgilərini hiss edirik.

- İndi əsgərlərimizlə söhbətləşdik, hazırladığınız xörəklərdən, onların keyfiyyətindən dönə-dönə razılıq etdilər. Əllərinizə sağlıq...

- Onların hər birini doğma övladımız bilirik, - deyə Leyla Vəkilova əsgərlərə bir ana sevgisi ilə nahar hazırladıqlarını bildirdi. - Bayaqdan masalarda nahar edən əsgərlərə baxıram, iştahla nahar etdiklərini görəndə özüm də sevinirəm. Çalışırıq ki, dadlı, keyfiyyətli yeməklər hazırlayaq. Onlar sağlam, gümrah, möhkəm olmalıdırlar, çünki torpaqlarımızı, Vətənimizi düşməndən qoruyurlar.

Söhbət əsnasında öyrəndik ki, Leyla ananın övladı Akif Beşirov 44 günlük Vətən müharibəsində torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. "Oğlum həmişə müharibə olarsa, mütləq gedəcəyini, ana Vətənimizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edəcəyini deyirdi. Vətən uğrunda döyüşmək, şəhid olmaq onun üçün ən böyük şərəf idi. Tarixi zəfər qazanıldı, oğlum da o zəfəri qazananların sırasında oldu, arzusuna çatdı".

Aşpaz Elşən Bəşirov doğma elobamızı düşməndən mətinliklə qoruyan gənclərimiz üçün yeməklərin hazırlanmasında əməyi olduğundan qürur duyduğunu dedi. "Gördüyünüz bu əsgərlər gecə-gündüz torpaqlarımızın keşiyində dayanırlar. Yəqin ki, nahar vaxtı onlara fikir verdiniz, görün nə qədər həvəslə nahar edirlər, çünki keyfiyyətli və yüksək kolorili ərzaqlardan hazırlanan yeməklərimiz dadlıdır. Dövlətimizin ordumuzun rəhbərliyi sağ olsunlar ki, əsgərlərə belə yüksək diqqət və qayğı göstərirlər".

Hərbi hissənin zabitlərindən olan Qafqaz Əsgərov da söhbətində yeməkxanada çalışan təcrübəli işçilərdən ağızdolusu razılıq etdi. Dedi ki, əsgərlərlə birgə o da burada nahar edir və hər dəfə xörəklərin keyfiyyətindən razı qalır.

Gördüklərimiz onu deməyə əsas verir ki, Azərbaycan Ordusunun bütün bölmələrində şəxsi heyət üçün ən müasir və ürəkaçan şərait yaradılıb. Belə mühitdə xidmət edən hərbi qulluqçular isə bütün tapşırıqların öhdəsindən bacarıqla gəlməyə can atır, göstərilən etimadı doğrultmağa çalışırlar.

**Baş leytenant
Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**



*Tarix yazan oğullar*

# Şəhid əsgər Samrad Eynəliyevin xatirəsi yad edildi

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "Şəhidlər ölməz, Vətən bölünməz" adlı tədbirlər silsiləsindən 2023-cü ilin 19-20 sentyabrında keçirilmiş antiterror əməliyyatı zamanı şəhid olmuş əsgər Samrad İkram oğlu Eynəliyevin xatirəsi yad olundu.*



Anım tədbirində Müdafiə Nazirliyi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin Şəhid Ailələri və Qadınlarla İş sektorunun əməkdaşları, şəhidin ailə üzvləri, yaxınları, bir qrup şəhid ailəsi, veteranlar, ictimaiyyətin nümayəndələri və başqa qonaqlar iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra şəhid əsgər Samrad Eynəliyevə həsr olunmuş videoçarx tədbir iştirakçılarına nümayiş olundu.

Tədbirdə şəhidin qısa, lakin şərəfli ömür yolundan danışılaraq bildirildi ki, Samrad 8 yanvar 2005-ci ildə Astara rayonunun Şəmətük kəndində anadan olub. O, 9-cu sinfi bitirdikdən sonra Lənkəran Dövlət Universitetinin nəzdindəki Sosial və Aqrar Kollecinin kompüter mühəndisliyi fakültəsinə daxil olsa da, burada təhsil almaqdan imtina edərək, hərbi xidmətə getdi və həyatını hərbə bağlayacağına söz verdi. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra yenidən ordu sıralarına qayıdacağını qarşısına məqsəd qoymuşdu…



2023-cü ilin 19-20 sentyabrında Qarabağ İqtisadi rayonunda ordumuzun erməni separatçılarına qarşı həyata keçirdiyi uğurlu antiterror əməliyyatı zamanı əsgər Samrad Eynəliyev Xocavənd rayonunun Qarakənd istiqamətində igidliklə döyüşərək, şəhidlik zirvəsinə yüksəlib. 22 sentyabr 2023-cü ildə doğulub böyüdüyü Astara rayonunun Şəmətük kənd qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə və "Vətən uğrunda" medalına layiq görülüb.

Anım tədbiri Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin Şəhid ailələri və qadınlarla iş sektorunun müdiri dövlət qulluqçusu Zümrüd Səmədovanın çıxışı ilə davam etdi. O, şəhid analarına müraciət edərək vurğuladı ki, siz həmişə başınızı uca tutun, fəxr edin ki, sizin övladlarınızın fədakarlıqları sayəsində 30 illik işğala son qoyuldu, torpaqlarımız erməni işğalçılarından azad olundu. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə üçrəngli dövlət bayrağımız qürurla dalğalanır. Samrad kimi Vətənimizin igid, hünərli oğulları düşmənə göz dağı olaraq şərəfli bir ömür yaşadılar. Onların qısa, lakin şərəfli ömürləri gələcək nəsillərə hər zaman örnək olacaq.

Çıxış edənlər şəhidin qardaşı Ergiz Eynəliyev, yaxın qohumları İntiqam Eynəliyev, Azər Eynəliyev və başqaları Samradın mərd, qorxmaz, cəsur bir oğul olmasından, vətənpərvərliyindən danışdılar, xatirələrini tədbir iştirakçıları ilə bölüşdülər. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması ilə şəhidlərimizin qisasının alındığını və bununla da düşmənin tamamilə məhv olunduğunu qeyd etdilər. Eynəliyevlər nəslinin üç oğul övladının 44 günlük Vətən müharibəsinin iştirakçısı, Samradın isə şəhid olduğunu vurğuladılar.

Daha sonra şəhidin anası Gülşən Mehdiyeva, atası çıxış edərək, göstərilən yüksək diqqət və qayğıya, övladının adının daima uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs ansamblının solistləri vətənpərvərliyi, Böyük Zəfərimizi tərənnüm edən mahnılar ifa etdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**



# "Milli Müdafiə Universiteti təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlığını təmin edir"

**(Əvvəli 1-ci səhifədə)**

**- Orxan müəllim, əvvəlcə Milli Müdafiə Universitetinin xüsusi təyinatlı təhsil müəssisələri haqqında ümumi məlumat verərdiniz. Universitetin tabeliyində təhsilin hansı pillələri tədris olunur?**

- Əvvəlcə bildirmək istəyirəm ki, Milli Müdafiə Universiteti 5 mart 2022-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən qabaqcıl xarici orduların təcrübəsinə əsaslanaraq yaradılıb. Bu gün Milli Müdafiə Universiteti təhsilin bütün səviyyələri üzrə mütəxəssis hazırlığını təmin edir. Burada tam orta, orta ixtisas əlavə təhsil və ali təhsil proqramları həyata keçirilir, eləcə də hərbi sahədə fundamental və tətbiqi tədqiqatlar aparılır. Orta təhsil dediyimiz zaman Milli Müdafiə Universitetinin tabeliyində olan Cəmşid Naxçıvanski və Heydər Əliyev adına Hərbi Liseylər nəzərdə tutulur. Subbakalavr təhsili dediyimiz zaman hərbi kolleclər, ali təhsil dediyimiz zaman isə Heydər Əliyev adına Hərbi İnstitut nəzərdə tutulur. Bundan əlavə olaraq, Milli Müdafiə Universitetinin tabeliyində olan Hərbi İdarəetmə İnstitutu və Hərbi Elmi Tədqiqat İnstitutunda müvafiq olaraq ali təhsilin magistratura və adyunktura pillələri tədris edilir".

**- Orxan müəllim, kimlər xüsusi təyinatlı təhsil müəssisələrində oxuya bilərlər?**

- Xüsusi təyinatlı təhsil müəssisələrində tələblərə uyğun olaraq 15-17 yaş aralığında hərbi liseylərdə, 17-23 yaş aralığında hərbi kolleclərdə və Heydər Əliyev adına Hərbi İnstitutda Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları təhsil ala bilərlər. Magistratura və adyunktura təhsili müəyyən rütbədə və vəzifədə xidmət edən hərbi qulluqçulara şamil olunur. Milli Müdafiə Universitetinin tabeliyində olan təhsil müəssisələrində təhsil alan kursantlar bir çox imtiyazlara sahibdirlər. Gənclərin hərbi sahədə təhsil almağa təşviq edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən, Milli Müdafiə Universitetinin tabeliyində olan hərbi liseylər, hərbi kolleclər və Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alan kursantlar üçün aylıq və birdəfəlik ödəmələr təsis olunmuşdur. Hansı təhsil müəssisəsinə qəbul olmasından asılı olaraq hər bir kursanta birdəfəlik ödəmə



həyata keçirilir. Bundan başqa, kursantın özünə aylıq təqaüd, onun ailə üzvlərinə aylıq maddi yardım və onun bank hesabında yığılan aylıq ödənişi həyata keçirilir, hansı ki, həmin təhsil müəssisəsindən məzun olduqdan sonra həmin yığılan məbləği əldə edə bilər".

**- Qeyd etmək yerinə düşər ki, hərbi təhsil sahəsindəki əməkdaşlıq planı çərçivəsində azərbaycanlı kursantlar dünyanın bir çox dövlətlərinin ali hərbi məktəblərində təhsil alırlar. Orxan müəllim, kimlər hərbi təhsil üçün xarici dövlətlərə göndərilir?**

- Milli Müdafiə Universitetinin tabeliyində olan xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan hər bir kursantın xarici dövlətdə təhsil alması üçün bir şansı vardır. Bu proses kursantların təhsil göstəricilərinə əsasən müəyyən bir kvota daxilində aparılır. Qeyd etmək istəyirəm ki, hərbi təhsil sahəsindəki əməkdaşlıq planı çərçivəsində azərbaycanlı kursantlar Türkiyə, İtaliya, Cənubi Koreya respublikalarında və Rusiya Federasiyasının hərbi təhsil müəssisələrində təhsilini davam etdirə bilərlər. Eyni zamanda, vurğulamaq yerinə düşər ki, Cənubi Koreya Respublikasında təhsil alan kursantlarımızdan biri bu yaxınlarda təhsildə fərqlənib və xarici kursantlar arasında təhsilini birinciliklə başa vurub.

**- Xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul prosesi necə aparılır?**

- Əvvəlcə onu qeyd etmək istəyirəm ki, ölkə üzrə əhatəliliyi özündə əks etdirən bu yenilik əlçatanlığın və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə ilk dəfə olaraq Milli Müdafiə Universiteti tərəfindən qəbul prosesi elektron qaydada həyata keçirilir. Azərbaycan Respublikasının vətəndaşları istənilən bölgədən Milli Müdafiə Universitetinin internet səhifəsinin təhsil müəssisələrinə qəbul bölməsindən müvafiq təhsil müəssisəsinə müraciət edə bilərlər. Milli Müdafiə Universitetinin tabeliyində olan təhsil müəssisələrinə qəbul Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanların nəticəsinə uyğun olaraq aparılır.

**- Heydər Əliyev adına Hərbi İnstituta hansı ixtisas qrupları üzrə sənəd qəbulu həyata keçirilir?**

- Heydər Əliyev adına Hərbi İnstituta sənəd qəbulu birinci, ikinci və üçüncü ixtisas qrupları üzərindən aparılır. Eyni zamanda, hərbi institutda və hərbi kolleclərdə təhsil alan kursantlar hərbi ixtisasla yanaşı, müvafiq olaraq orta ixtisas təhsili pilləsi üzrə subbakalavr, peşə ixtisas dərəcəsi və ya ali peşə ixtisas dərəcəsi əldə edirlər.

**- Orxan müəllim, Milli Müdafiə Universiteti və onun nəzdində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələri barədə ətraflı məlumat verdiyiniz üçün təşəkkür edirəm, sizə fəaliyyətinizdə uğurlar arzulayıram.**

- Çox sağ olun.

**Müsahibəni apardı:**
**Tamilla HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**



### Görkəmli şəxsiyyətlər

# Üç ordunun zabiti olan azərbaycanlı general - Tərlan bəy Əlyarbəyov



***Tərlan bəy Abdulla bəy oğlu Əlyarbəyov 1892-ci il noyabrın 28-də o zaman Şamaxıya tabe olan Ağsu kəndində zadəgan ailəsində anadan olub. Tərlan bəy 1908-ci ildə Şamaxıdakı altıillik şəhər məktəbini bitirib və ordu sıralarına könüllü olaraq yollanıb. 1911-ci ildə 3-cü Qafqaz piyada alayının əlaçı əsgəri olan T.Əlyarbəyovu Tiflisdəki Mixaylovsk hərbi piyada məktəbinə təhsil almağa göndəriblər. 4 illik təhsili zamanı birincilər sırasında olan, bütün fənləri müvəffəqiyyətlə mənimsəyən Tərlan bəy hərbi məktəbi birinci dərəcəli diplomla bitirərək "podporuçik" rütbəsində Şamaxıdakı 205-ci piyada alayında xidmətə başlayıb.***

1914-cü ildə Birinci Dünya müharibəsi başlayanda Tərlan bəyin xidmət etdiyi 205-ci alay Qərb cəbhəsinə göndərilib. Odlu-alovlu səngərlərdə gənc zabitin çətin sınaq günləri başlayıb. Komandirlərin verdiyi tapşırıqları uğurla yerinə yetirən, döyüşdən-döyüşə qələbə ilə çıxan Tərlan bəy əsgərlərin də sevimlisi olur.

Bacarığı və əzmkarlığı yüksək qiymətləndirilən bölük komandiri Tərlan bəyə "ştabs-kapitan" rütbəsi verilib və o, piyada batalyonunun komandiri kimi məsul vəzifəyə təyin edilib. Öz batalyonunu qələbədən-qələbəyə aparan ştabs-kapitan T.Əlyarbəyovun igidliyi bütün Qərb cəbhəsinə yayılmışdı. 1916-cı ilin mayında o, üçüncü dərəcəli "Müqəddəs Stanislav" (qılınc və bantla birgə) və üzərində "İgidliyə görə" yazısı olan dördüncü dərəcəli "Müqəddəs Anna", sonralar "Müqəddəs Georgi" ordenlərinə layiq görülüb.

Tərlan bəyə Verden şəhəri ətrafında gedən qızğın döyüşlər zamanı 10-cu ordunun komandanı olan general Əlağa Şıxlinski ilə görüşüb söhbət etmək nəsib olub. O, bu şöhrətli generalla görüşünü uzun müddət unuda bilmir. Onlar bir də 1918-ci ildə Bakıda görüşüblər.

1916-cı ilin yayında general A.A.Brusilovun təşkil etdiyi məşhur hücumda iştirak edən T.Əlyarbəyov şiddətli döyüşlər zamanı sinəsindən ağır yaralanıb. Bu, müharibə başlanandan Tərlan bəyin aldığı dördüncü yara idi. Bir müddət Brest hərbi hospitalında müalicə olunduqdan sonra onu müalicəsini davam etdirmək üçün Bakıya göndəriblər.

Döyüşlərdə böyüyüb-bərkimiş T.Əlyarbəyov Azərbaycan Xalq Cümhuriyyəti Ordusu yaradılanda onun sıralarına qoşulub və 2-ci piyada alayının komandir köməkçisi vəzifəsinə təyin edilib. Onun xidmət etdiyi alay ölkədə sabitliyi bərpa etməklə və döyüş hazırlığını artırmaqla məşğul olub. 1919-cu ilin yayında Rusiyanın ağqvardiyaçı generalı A.Denikinin ordusunun Azərbaycana hücum təhlükəsi yarananda 2-ci piyada alayı sərhədlərimizin mühafizəsini gücləndirmək üçün Qusarda yerləşdirilib. Onlar gecə-gündüz vuruşaraq duşməni Azərbaycana buraxmayıblar.

Nümunəvi xidmətlərinə görə T.Əlyarbəyova "rotmistr" rütbəsi verilib və Bakı şəhəri və onun rayonlarının hərbi rəisi təyin edilib. Bu vəzifədə o, Bakı şəhəri və onun ətraf rayonlarının əhalisi arasında hərbi çağırış işinin təşkilinə başçılıq edib. Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Naziri Səməd bəy Mehmandarovun təşəbbüsü ilə təsis edilmiş yeddi hərbi rəislikdən biri olan həmin vəzifənin yaradılmasında məqsəd hərbi çağırış və səfərbərlik işində mövcud çatışmazlıqları aradan qaldırmaq, bu sahədə yol verilən nöqsanların qarşısını almaq idi. Cümhuriyyətin süqutuna qədər Bakı və onun rayonlarının hərbi rəisi vəzifəsini icra edib.

1920-ci ildə Sovet hakimiyyəti qurulduqdan sonra çağırış və səfərbərlik sahəsində kifayət qədər təcrübəyə malik olduğu üçün Tərlan bəy Əlyarbəyov yüksək hərbi vəzifələrdə işləyib, 1923-1929-cu illərdə Azərbaycan Sovet Sosialist Respublikası hərbi komissarının köməkçisi və ərazi idarəsinin rəisi vəzifəsində çalışıb. Tərlan bəy 1925-1931-ci illərdə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvlüyünə namizəd seçilib, Azərbaycan SSR Ali Sovetinin 2-ci çağırış deputatı olub. 1927-ci ildə o, Moskvada M.V.Frunze adına Hərbi Akademiya yanında Ali komanda heyəti kursunu bitirib, 1930-1938-ci illərdə Cənubi Qafqazın müxtəlif hərbi məktəblərində işləyib. 1937-1941-ci illərdə M.V.Frunze adına Ali Hərbi Akademiyada oxuyub.

Tərlan bəy akademiyanı bitirəndə artıq Böyük Vətən müharibəsi başlamışdı. 1942-ci ildə Şimali Qafqazda yaranan ağır hərbi vəziyyəti nəzərə alan SSRİ rəhbərliyi azərbaycanlılardan ibarət milli diviziyaların sayını artırır. Milli zabitlərə olan ehtiyacı ödəmək üçün azərbaycanlı zabitlər bu hissələrə təyinat alıblar.

Təcrübəli hərbçi olduğu üçün Tərlan bəy Əlyarbəyova 416-cı atıcı diviziyaya zabitlərin yığılması, onların hərbi hazırlığına nəzarət etmək tapşırılıb. Artıq "polkovnik" rütbəsində olan T.Əlyarbəyov azərbaycanlılardan ibarət 416-cı milli atıcı diviziyanın (sonradan "Taqanroq" diviziyası adlanıb) komandir müavini, üç ay sonra isə komandiri təyin edilib. Diviziya 1942-ci il noyabrın 30-da şəhər Terek çayı sahilində düşmənlə ilk dəfə döyüşə girib. İki günlük döyüşdən sonra bir neçə yaşayış məntəqəsi faşistlərdən azad edilib. Xalqımızın igid oğullarından ibarət olan bu diviziya dəfələrlə ordu komandanlığının təşəkkürünə layiq görülüb.

Həmçinin T.Əlyarbəyov 79-cu, 88-ci alaya və 402-ci atıcı diviziyaya komandir, 58-ci korpusun komandir müavini kimi məsul vəzifəyə təyin edilib. Bu illər ərzində Tərlan bəy Əlyarbəyov özünün komandirlik xüsusiyyətlərini və döyüş bacarığın parlaq şəkildə göstərib. O, xidmət etdiyi bütün hərbi hissələrdə böyük nüfuza və hörmətə malik olub.

Tərlan bəy Abdulla bəy oğlu Əlyarbəyova 1944-cü il fevralın 9-da "general-mayor" rütbəsi verilib.

O, 1946-1948-ci illərdə Azərbaycan SSR Maarif nazirinin müdafiə işləri üzrə müavini vəzifəsində çalışıb və 1948-ci ildə istefaya çıxıb. Sovet ordusunda xidmətlərinə görə Sovet İttifaqının "Lenin", "Qırmızı Bayraq", "Qırmızı Ulduz" ordenləri və müxtəlif medallarla təltif olunub.

1956-cı il fevralın 15-də general-mayor Tərlan bəy Əlyarbəyov Bakı şəhərində vəfat edib və Fəxri xiyabanda dəfn olunub.

Tərlan bəy Əlyarbəyovun adına doğulduğu Şamaxı və Bakı şəhərlərində küçə də var.

**"Azərbaycan Ordusu"**

### Gənc zabitlərimiz

# "XXI əsr texnoloji mübarizə əsridir"

***Vətənin müdafiəsində dayanmaq, onu göz bəbəyi kimi qorumaq hər bir Azərbaycan gəncinin övladlıq borcu, vətəndaşlıq missiyasıdır. Bu borcu, mənimsədiyi peşə sayəsində vicdanla və ləyaqətlə yerinə yetirən minlərlə gəncimiz vardır. Nicat Məsimzadə də belə vətənpərvər gənclərimizdən biridir. Ömrünü hərb peşəsinə bağlayan Nicat Azərbaycan Texniki Universitetini bitirib. 2018-ci ildə "Ehtiyat zabit hazırlığı kursu"nu müvəffəqiyyətlə başa vurduqdan sonra "leytenant" hərbi rütbəsində xidmətə başlayıb.***



O, öz üzərində daima çalışan, müasir hərbi texnologiyalara aid biliklərini inkişaf etdirən gənc zabitlərimizdəndir. Xidmətində olduqca məsuliyyətlidir. Qazandığı nəzəri və praktiki biliklər onun daha da inkişaf etməsində mühüm rol oynayır. Zabitin söylədiyinə görə, ixtisas üzrə öyrəndiklərini keçirilən təlimlərdə, məşğələlərdə tətbiq edir, hərbi texnologiyaların sirlərinə dərindən yiyələnir. "Təsadüfi deyildir ki, XXI əsri texnoloji mübarizə əsri adlandırırlar. Bununla bağlı Ali Baş Komandanımız öz çıxışlarının birində demişdir: "Bu gün dünyanın inkişafı müasir texnologiyaların imkanından asılıdır. O ölkələr ki, bu texnologiyaları icad edir, yaxud da ki, onları tətbiq edir, o ölkələr daim uğur qazanacaqlar. XXI əsr texnoloji mübarizə əsridir və bizim kadr potensialımız, texniki imkanlarımız buna hazır olmalıdır". Bəli, hərbi sahəni də bura əlavə etsək, deməliyik ki, onda ölkəmizin müdafiə potensialı da müasirləşməli, yeniliklərlə möhkəmləndirilməlidir. Qürurverici haldır ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer alıb. Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz 44 günlük Vətən müharibəsində Böyük Qələbə qazandı. 30 ilə yaxın müddətdə işğal altında olan tarixi torpaqlarımız öz azadlığına qovuşdu. Əməliyyatlar zamanı hərbi qulluqçularımız yüksək döyüş bacarığı və şücaət nümayiş etdirdilər. Vətənpərvər, peşəkar hərbçilərimizin sayəsində sıldırım qayalıqlar üzərindəki Şuşa şəhəri azad olundu. Bu gün rəşadətli ordumuzun döyüş təcrübəsi dünya ordularında da öyrənilir. Müasir texnika və silahlar ordumuzun peşəkar hərbçiləri tərəfindən yüksək səviyyədə idarə olunur. Bizə həvalə olunan döyüş texnikasının sirlərinə və taktiki-texniki xüsusiyyətlərinə dərindən yiyələnməyimiz, ilk növbədə, vəzifə borcumuzdur. Bu vəzifə borcumuzun öhdəsindən bacarıqla gəlməyə, verilən tapşırıqların yerinə yetirilməsində yüksək nəticələrə nail olmağa çalışırıq", - deyə zabit bildirdi.

Onu da qeyd edək ki, baş leytenant Nicat Məsimzadə 44 günlük Vətən müharibəsinin və antiterror əməliyyatının iştirakçısıdır. Gənc zabitin sinəsində "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları parlayır. Nicata müqəddəs Vətənə xidmətində uğurlar arzulayırıq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Bu tarixlər unudulmayacaq!

(Əvvəli 1-ci səhifədə)



Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində qazandığı tarixi Zəfər dünyaya nizam gətirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Bakıda Zəfər parkı açıldı. Tarixi Zəfərin ad daşıyıcısı olan Zəfər parkı tarixi parkdı. Bu park Azərbaycan əsgərinin şücaətinin parkıdı. Bu park qüdrətin parkıdı. Bu park İkinci Qarabağ müharibəsinə kimi niyyət idi, 2024-cü ilin 8 noyabrında ruhumuzun işığına döndü...

Tarixi gerçəkliyin gerçək muzeyində düşüncələr 44 rəqəminin müqəddəsliyinə sarılır; 44 rəqəmi müqəddəslik parkı bildiyimiz Zəfər parkının müqəddəsliyinin nişanəsidi...

"N" hərbi hissəsində "Bizdən sonra gələn nəsillər bu tarixi bilməlidirlər və unutmamalıdırlar" mövzusunda keçirilən disputda Azərbaycanın müstəqillik dövrünün müharibələri (Azərbaycana qarşı Ermənistanın apardığı işğalçılıq müharibəsi, işğalçılıq müharibəsinə qarşı Azərbaycanın ədalətli müharibəsi), döyüşlər, qələbələr xatırlanılır. Sözə qüvvət kimi əsgərlərə xitabən deyirəm ki, müharibədə qələbə həm hərbi, həm də mənəvi-psixoloji dəyərlə şərtlənir. Müharibədə ruhun müəyyənləşdirdiyi sərhəd silahın müəyyənləşdirdiyi sərhədlərdən geniş olur. Ruhumuzun 1994-cü ilin 4 yanvarında - Horadiz əməliyyatında, 2016-cı ilin aprelində - Aprel döyüşlərində, 2020-ci ilin 27 sentyabrında - İkinci Qarabağ müharibəsində, 2022-ci ilin avqust, sentyabr döyüşlərində arzuladığı 2023-cü il sentyabrın 19-da - antiterror əməliyyatında gerçəkləşdi, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu.

Zəfər parkının açılışındakı çıxışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu tarixlərin, mahiyyəti, bu tarixlərlə səsləşən digər tarixlərin unudulmamasını tövsiyə edirdi. Bugünkü disput həmin tövsiyənin işığıdı...

Əsgərlərin mövzuya bələdliyini tarixə bələdlik bilirik. Bu bələdlik əsasında müharibə, deməli, qələbələr mərhələlərlə xatırlanılır, xatırlananlar disputun başlanğıcı olur:

Əsgər Cəfər Səbziyev Azərbaycan Ordusunun həmişə yüksək döyüş hazırlığına malik olduğunu deyir, fikrini döyüşlərdə qazanılmış qələbələri xatırlatmaqla tamamlayır:

- 2016-cı ilin aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı birləşmələrinin irimiqyaslı təxribat törətmək niyyətinin - hücumunun qarşısını qətiyyətlə alan Azərbaycan Ordusunun hissələri döyüşləri davam etdirdi, dörd gün müddətində düşmənin neçə-neçə döyüş mövqeyi, komanda məntəqəsi, onlarla döyüş texnikası, canlı qüvvəsi məhv edildi, Lələtəpə, Bayraqtəpə kimi strateji yüksəkliklər də daxil olmaqla, 2000 hektar ərazi işğaldan azad olundu...

Əsgər Cavid Quliyev əsgər yoldaşının fikrini bədiiləşdirməklə tamamlayır:

- Bir əsərdə oxumuşdum ki, onda "Lələtəpədən Şuşaya aparan yollar görünürmüş".

Hər xatırlama bir tarixdi. Bu tarix həm ehtiram kimi yaşanılır, həm də ehtiram kimi yaşadılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zəfər parkının açılışında dediyi həmin yaşarı kəlam bu gənclərin dünyaduyumunun yol göstərənidi, onlar sabahlara böyük sədaqətlə dünənin tarixinin işığından baxırlar.

Leytenant Orxan Hüseynquliyev əsgərlərin dediklərini ümumiləşdirərək bildirir ki, Aprel döyüşləri həm də böyük mənəvi-psixoloji əhəmiyyətə malik oldu. Azərbaycan Ordusunun şəxsi heyəti öz gücünə daha qətiyyətlə inandı, sərkərdəsinə daha sədaqətlə güvəndi, onun mənəvi-psixoloji hazırlığını bu inam, bu güvənc tamamladı. Ordu quruculuğu prosesinə həmişə dövlətin diqqət və qayğısı yüksək olduğuna görə irimiqyaslı islahatlar şəxsi heyətin döyüş hazırlığını yüksəltmişdi. Ordu Ali Baş Komandanın bütün əmrlərini yerinə yetirməyə hazır idi.

Leytenant Orxan Hüseynquliyevin dedikləri əsgərlərin yaddaşını tərpədir. Bu yaddaşı tarixlərin unudulmadığının təsdiqi bilirik. Günnüt əməliyyatı da xatırlanır. Bu əməliyyat vaxtı 12 yaşlı məktəbli olan bugünkü əsgərlər 6 il əvvəlin döyüşlərini, qazanılan qələbəni, bu qələbə ilə tarixləşənləri çağırışçı yaşına çatanda müəllimlərindən eşitdiklərinə əsaslanıb xatırlayırlar:

- 2018-ci ilin mayında Bulaq yüksəkliyi, Qızılqaya dağı da daxil olmaqla, 11000 hektar ərazi düşmənin nəzarətindən çıxarıldı.

- Buna ərazilərin azad edilməsi də demək mümkündür, - əsgər Cavid Quliyev əsgər yoldaşı Endi Muradovun fikirlərini belə tamamlayır. Əsgər Endi Muradov onu da bildirir ki, Günnüt əməliyyatı nəticəsində Dərələyəz mahalının Arpa kəndi Azərbaycan Ordusunun nəzarətinə keçdi. Əsgərlərin baxışlarında işıqlı bir ovqat görünür.

Əsgər yoldaşının fikrinin davamı kimi əsgər Cəfər Səbziyev deyir ki, Ermənistan 2020-ci il sentyabrın 27-də yeni ərazilər işğal etmək niyyətilə işğal etdiyi ərazilərdən hücum etməyə başladı. Azərbaycan Ordusunun hissələri bu hücumun da qarşısını qətiyyətlə aldı, ordu hissələrimiz Ali Baş Komandanın döyüş əmri ilə əks-hücuma keçdi. İkinci Qarabağ müharibəsi başladı...

- Bu əmr Ermənistanın ədalətsiz müharibəsini sona çatdıracaq ədalətli müharibəmizin başlanğıcı oldu, - deyirəm. Əsgərlər məmnunluqla razılaşırlar.

- Qəbul imtahanlarına hazırlaşanda da oxumuşdum, komandirimizdən də eşitmişdim, Azərbaycan Ordusu düşmənin mühəndis-istehkam sədlərini dağıtdı, qələbələr qazana-qazana döyüşdü, - əsgər Endi Muradov İkinci Qarabağ müharibəsinin ilk gününü xatırladır. - Döyüşlərdə 20 kənd, Murovdağ istiqamətində strateji yüksəkliklər işğaldan azad edildi.

Əsgər Oruc Bəkirli əsgər yoldaşının dediklərinə qüvvət kimi deyir ki, bu qələbələr sonrakı qələbələrin başlanğıcı oldu. Ordumuz döyüşə-döyüşə Şuşaya yaxınlaşırdı. Qələbəni tezləşdirmək - işğalı sonlandırmaq üçün Topxana meşəsindən yol çəkilməsinə qərar verildi. Döyüşçülərimiz qısa müddətdə çəkilən bu yolla Şuşanın hüdudlarına çatdılar.

Şuşa döyüşləri haqqında əsgərlərin hamısı danışmaq istəyir. Bu istək də tariximizə bələdliyin, sevginin, tarixi yaşatmanın əminliyidi. Leytenant Orxan Hüseynquliyev Şuşa döyüşləri haqqında "Nezavisimaya qazeta"da dərc olunmuş bir məqaləni, məqalənin mahiyyətini ifadə edən bir fikri xatırladır: "Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar"...

Əsgərlərimizin İkinci Qarabağ müharibəsinin döyüşləri haqqında məlumatları vardı. Hərbi xidmətdə bu məlumatlar söhbətlərlə, ictimai-siyasi dərslərlə genişləndi. Onlar Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsindən sonra Ali Baş Komandanın əmri ilə yerinə yetirdiyi əməliyyatların səbəblərini də bilirlər, necə keçirildiyini də. Bilirlər ki, Ermənistan silahlı birləşmələrinin qalıqları, Ermənistanın siyasi və hərbi nəzarətində olan silahlı birləşmələr Azərbaycan ərazilərində yenə təxribatlar törədirmiş. 2022-ci il avqustun 3-də Kəlbəcər və Laçında Qırxqız yüksəkliyini tutmaq, orda döyüş mövqeləri yaratmaq istəmişdi. Azərbaycan Ordusunun hissələri düşmənin bu istəyinin qarşısını almışdı. Döyüşdə əsgər Anar Kazımov şəhid olmuşdu. Azərbaycan Ordusu əməliyyatı davam etdirmişdi, Qırxqız yüksəkliyi, Sarıbaba və daha bir neçə əhəmiyyətli yüksəklik nəzarətə götürülmüşdü. Hava zərbələri ilə düşmənin Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsində yerləşən hərbi hissəsi böyük dağıntılara, xeyli itkiyə məruz qaldı. Bu əməliyyat da təsdiqlədi ki, Azərbaycan Ordusu yüksək döyüş hazırlığına malikdir.

Əsgərlərin yaddaşından dikələn faktları da müharibə tariximizə ehtiram kimi dinləyirik:

- 2022-ci il 12-15 sentyabr döyüşləri də müharibə tariximizdir. Ordumuzun hərbi qulluqçularının şəhid olduğu bu döyüşdə düşmən də böyük itkilər vermişdi, - əsgər Cavid Quliyev belə deyir...

- 2023-cü ilin 19 sentyabrında Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmri ilə antiterror əməliyyatına başladı. Düşmən təslim oldu, Əsgəran, Xocalı, Xankəndi işğaldan azad edildi. Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu. Həmin vaxtlarda mətbuatda oxumuşdum ki, bu döyüşlərdə Ordumuzun onlarla hərbi qulluqçusu şəhid olub, - əsgər Endi Muradov deyir.

Leytenant Orxan Hüseynquliyev qeyd edir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Bakıda yaradılan Zəfər parkının açılışında dediyi digər fikirlər kimi "Bizdən sonra gələn nəsillər bu tarixi bilməlidirlər və unutmamalıdırlar" fikri də Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının tənzimləyici amillərindən biri olacaq...

Leytenant Orxan Hüseynquliyev disput iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zəfər parkının açılışında xalqa müraciətindəki fikirləri xatırlatdı: "Cəmi 44 gün ərzində düşmənin 6-7 müdafiə xəttini öz sinəsini qabağa verərək, güllə altına qoyaraq yaran bizim qəhrəman övladlarımız, hərbçilərimiz bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu, gücünü, iradəsini bir daha göstərmişdir".

"N" hərbi hissəsində keçirilən disput bir əminliklə başa çatır: "Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasını təmin edən döyüşlərin Azərbaycanın ədalətli müharibələrinin döyüşlərində tarixi, qazanılan Zəfər heç zaman unudulmayacaq. Bu əminlik ruhumuzun dövlətçilik bayrağıdır", həmişə belə də olacaq - bizdən sonra gələn nəsillərin əminliyi də bayrağımıza sevginin zərrəsi kimi yaşadılacaq" - əsgərlərin baxışları belə deyirdi. Nə gözəl deyirdi...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Mövqelərimiz atəşə tutulub

Aprelin 6-sı axşam saatlarından aprelin 7-si saat 04:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus, Qarakilsə, Basarkeçər, Keşişkənd, Tovuzqala və Çəmbərək rayonları istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə intensiv atəşə tutub.

Müdafiə Nazirliyi xəbər verir ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

* * *

Aprelin 8-i saat 19:20-dən 22:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Qaraiman və Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

# Hərbi vəzifəlilərlə növbəti təlim toplanışı başlayıb

(Əvvəli 1-ci səhifədə)

Müdafiə Nazirliyi xəbər verir ki, ehtiyatdan çağırılan hərbi vəzifəlilər müvafiq qeydiyyatdan və həkim müayinəsindən keçdikdən, eləcə də bütün təminat növləri ilə tam təmin olunduqdan sonra plana uyğun məşğələlərə cəlb olunurlar.

Təlim toplanışı zamanı iştirakçılarla maarifləndirici söhbətlər aparılacaq, onlara təhlükəsizlik qaydaları çatdırılacaq və sıra hazırlığı üzrə məşğələlər təşkil olunacaq.

Toplanışda, həmçinin hərbi vəzifəlilərə döyüş zamanı ilkin tibbi yardımın göstərilməsi qaydaları öyrədiləcək, yaralıların ərazidən təxliyə edilməsi üsulları məşq etdiriləcək.

Tədris proqramına müvafiq olaraq toplanışa cəlb edilmiş heyətlə çöl şəraitində keçiriləcək məşğələlərdə iştirakçılar Azərbaycan Ordusunun arsenalında olan müasir silah və texnika ilə tanış olacaq, onların döyüş tətbiqini öyrənəcək, həmçinin bölmələrimizin silahlanmasında olan atıcı silahlardan döyüş atışları icra edəcəklər.



Keçirilən toplanışlarda əsas diqqət hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin artırılması, praktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də bilik və bacarıqlarının inkişaf etdirilməsinə yönəldilib.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

1. **Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.**
2. **Müasir Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin əsəridir.**

**Mövzu:** Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.

### Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir

Müəyyən mərhələdə önə çıxan fenomen şəxsiyyətlər mənsub olduqları xalqın daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali idealların gerçəkləşməsində müstəsna rol oynayır, bununla da əbədiyaşarlıq qazanırlar. Məhz onların qurub yaratdıqları, miras qoyduqları irs xalqlarının gələcəyinə işıq salıb, sonrakı tarixini, dünyadakı yerini müəyyənləşdirib. Belə dühalardan biri də şərəfli və mənalı ömür yolunu Azərbaycanın nicatına, milli dövlətçiliyimizin dirçəlməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna qovuşmasına həsr edən Heydər Əliyevdir. Xalqımızın Ümummilli Liderinə çevrilmiş bu dahi insanın adı ölkəmizin simvoluna, əməlləri isə şəxsi hünər rəmzinə çevrilmiş, həyat və fəaliyyəti doğma Vətəninə və torpağa məhəbbət, sədaqət meyarı olmuşdur.

1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində dünyaya göz açan Ulu Öndər ilk təhsilini Naxçıvanda alıb. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsinə daxil olub. İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməyib. 1941-1945-ci illərdə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işlədikdən sonra 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib. SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (Sankt-Peterburq) Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil aldıqdan sonra, 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bölmə rəisi təyin edilib. Hər zaman təhsilə böyük önəm verən Ulu Öndər Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (Bakı Dövlət Universiteti) tarix fakültəsinin qiyabi şöbəsini bitirib. 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilib və həmin ildə ona "general-mayor" hərbi rütbəsi verilib. 1969-cu ildə - Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Ulu Öndər Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdi. Tarixi inkişafın gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycan Respublikasını Ulu Öndər hələ o zaman qurmağa başlamışdı.

Heydər Əliyevin Ümummilli Liderə çevrilməsini təmin edən başlıca amillərdən biri onun istənilən siyasi şəraitdə xalqın, dövlətin problemlərinə biganə qalmamasıdır. Bu yerdə Ulu Öndərin sovetlər dövründə Azərbaycana rəhbərliyini xatırlamaya bilmərik. Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərliyinin ilk dövrlərindən atdığı addımlarla, keçirdiyi islahatlarla xalqını, dövlətini sevən rəhbər olduğunu sübuta yetirmişdir. Ulu Öndər respublikanın üzləşdiyi problemləri ilk gündən düzgün müəyyənləşdirməklə, onların həlli üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərmiş, fitri istedadı, yüksək təşkilatçılıq və idarəçilik məharəti, ən əsası, milli ideallara bağlılığı ilə Azərbaycanı cəmi bir neçə ilə dinamik inkişaf yoluna çıxarmağa müvəffəq olmuşdur. SSRİ dövlət təhlükəsizlik sistemində sıravi işçidən rəhbər vəzifəyə kimi yüksəlmiş ilk azərbaycanlı olan Ulu Öndər sovet rejiminin sərt qanunlarına baxmayaraq, Azərbaycana rəhbərlik etməyə başladığı 1969-cu ildən respublikamızda böyük iqtisadi, elmi yüksəlişlə yanaşı, ədəbi-mədəni inkişafa və müstəqil düşüncəyə yol açmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti ondan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində, XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli-azadlıq hərəkatının yeni mərhələyə - yüksəliş mərhələsinə daxil olması demək idi. Sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan SSR artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışından sonra müstəqil Azərbaycanın əsas hədəflərindən biri kimi milli və bəşəri dəyərlərə söykənən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində real addımlar atıldı, ölkənin gələcək demokratik inkişaf yolu müəyyənləşdi, insan hüquq və azadlıqlarının bərqərar olması üçün münbit ictimai-siyasi şərait yaradıldı, sahəvi qanunlar işlənib hazırlandı, qanunçuluq möhkəmləndirildi, hüquqi islahatlar həyata keçirildi. Ulu Öndərin formalaşdırdığı azərbaycançılıq fəlsəfəsi milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək dünya azərbaycanlılarının həmrəyliyi üçün zəmin yaratdı. Son yüz ildə çox ciddi məsələ kimi özünü qabarıq göstərən milli dövlətçilik problemi Ulu Öndər Heydər Əliyevin gərgin və ardıcıl fəaliyyəti nəticəsində elmdən, nəzəriyyədən əməli siyasət və praktiki həyat müstəvisinə keçirildi.

Azərbaycan Respublikasında müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ulu Öndərin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.

Azərbaycan Respublikasının dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləridir.

Ulu Öndərin vaxtilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun nəinki Cənubi Qafqazda, dünyada aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.

Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Ümummilli Lider Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.

### Müasir Azərbaycan Ümummilli Liderimiz Heydər Əliyevin əsəridir

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri vardır. 1991-ci ilin 18 oktyabrında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də əsas təşəbbüskarlarından biri kimi imza atdığı "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı" ilə ölkəmizin istiqlaliyyəti bütün dünyaya bəyan edilmişdir. 1991-ci ilin oktyabrından 1993-cü ilin iyununadək ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, eyni zamanda, ölkənin müstəqilliyi üçün real təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, xaos və anarxiya mühitinin dərinləşməsi göstərmişdir ki, ölkəni yaranmış acınacaqlı vəziyyətdən yalnız Ulu Öndər Heydər Əliyev kimi müdrik və uzaqgörən şəxsiyyət xilas edə bilər. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli çağırışına cavab verərək hakimiyyət sükanı arxasına keçmiş, ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərpa etmiş, eyni zamanda, insan hüquq və azadlıqlarının təminatına xidmət edən hüquqi islahatların müəllifi olmuşdur. Mürəkkəb şəraitdə xalqın səsinə səs verərək hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev respublikanı milli müstəqilliyin itirilməsi təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında hakimiyyət boşluğu qısa müddətdə aradan qaldırılmış, respublikanın müxtəlif bölgələrində dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər xalqın dəstəyi ilə zərərsizləşdirilmiş, vətəndaş sülhü və həmrəyliyinin təminatı istiqamətində ciddi addımlar atılmışdır. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratmışdır.

Ulu Öndər dövlət müstəqilliyimizi əbədi və dönməz etdi, ölkəmizə sabitlik, sülh və əmin-amanlıq, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi. Azərbaycan Respublikasının zorla cəlb olunduğu Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, Azərbaycan Respublikasını tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirdi. Respublikamızın beynəlxalq əlaqələrini möhkəmləndirərək gələcək inkişafa hesablanmış neçə-neçə layihələrin, xüsusilə, uğurlu neft strategiyasının təməlini qoydu. Ölkəmizin günbəgün beynəlxalq nüfuzu artmağa, iqtisadiyyatımızın müxtəlif sahələrinə külli miqdarda xarici sərmayələr yatırılmağa başlanıldı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Böyük İpək Yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.

Ulu Öndər Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Ulu Öndər Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Ulu Öndər Heydər Əliyev fəaliyyətinin nəticəsidir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Respublikasının müasir tarixini əhatə edən, zaman baxımından bir qərinəlik, mahiyyətcə isə əhəmiyyəti əsrlərlə ölçülən mərhələsində həm dünya şöhrətli uzaqgörən siyasi və dövlət xadimi, həm mahir strateq və yenilməz sərkərdə, həm iqtisadi-mədəni intibahın memarı və milli-mənəvi mədəniyyətin böyük hamisi, həm yorulmaz vətənpərvər və polad əqidəli vətəndaş, həm də görkəmli mütəfəkkir və milli ziyalılığın öndəri kimi titanik fəaliyyət göstərmişdir.

Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətləri olmuş, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermişdir. Tarixə Azərbaycan xalqının Ümummilli Lideri kimi daxil olmuş bu əvəzolunmaz insan liderlərə məxsus ən ali keyfiyyətlərə malik idi. Tanrı ona hər bir üstünlüyü bəxş etmişdi: yaraşıqlı boy-buxun, təbəssüm və sərtliyi sintez edən sima, gələcəyi dəqiq müəyyənləşdirən, tarixin nizamını təmin edən təfəkkür, parlaq natiqlik məharəti, qüdrətli siyasi iradə, güclü dövlətçilik duyğusu, çevik idarəetmə məharəti, insanların qəlbinə yol tapmaq, xalqın qüdrətinə arxalanmaq bacarığı! Bir sözlə, Ulu Öndər Heydər Əliyev qalibiyyət əzmiylə yaşayan və dövləti cəsarətlə idarə edən möhtəşəm bir şəxsiyyət idi. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev atasından qalan nadir şəxsiyyətlərə məxsus bu keyfiyyətləri şərəflə daşıyır və böyük əzmlə dövlət idarəçiliyində tətbiq edir, tarixin yeni tələblərinə uyğun olaraq təkmilləşdirib inkişaf etdirir. Azərbaycan Respublikasının dünyadakı nüfuzlu, vüsətli siyasi və iqtisadi yüksəlişi sübut edir ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev qalibiyyət əzmini dövlət idarəçiliyinin sarsılmaz baş xətti kimi inadkar bir inamla qoruyub saxlayır. Xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ərazi bütövlüyümüzü bərpa etdi və eyni zamanda, ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir. Məhz Ümummilli Lider Heydər Əliyevin xidmətləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, qanunun aliliyinin təmin edilməsi, dilindən, dinindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb.

Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu istiqamətində əsas prinsipləri təsbit edən Azərbaycan, eyni zamanda, iqtisadiyyatın inkişafında da misli görünməmiş uğurlara imza atmaqdadır. Dövlət başçısı İlham Əliyevin fəaliyyəti dövründə Azərbaycanda iqtisadi və sosial sahələrdə köklü islahatların davam etdirilməsi, dövlət proqramlarının icrası, dinamik sosial-iqtisadi inkişafının qarşıya qoyulmuş məqsədlərə çatmasının göstəricisidir.

Əsası Ulu Öndərimiz, Əbədiyaşar Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycanda siyasi və iqtisadi islahatların keçirilməsi hesabına qazanılan böyük uğurlar parlaq və fərəhlidir. Biz bu gün fəxr edə bilərik ki, Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin qurduğu müstəqil, demokratik və azad bir ölkənin vətəndaşlarıyıq!

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Maraq dünyamız*

# Alimlər: Sahara səhrası minilliklər öncə sulu və yaşıl savanna olub



Sahara səhrası dünyanın ən quraq və kimsəsiz yerlərindən biridir. Şimali Afrikada 11 ölkənin bir hissəsini əhatə edən, Çin və ya ABŞ əraziləri ilə müqayisə oluna bilən bu nəhəng məkan əvvəllər "qonaqpərvər" olub.

"Reuters" agentliyi xəbər verir ki, təxminən eramızdan əvvəl 14500-cü ildən e.ə. 5000-ci il arasında Sahara su hövzələri ilə zəngin və həyat dolu yaşıl bir savanna olmuşdur. Təxminən 7 min il əvvələ aid olan və indiki Liviyada yaşamış iki insanın sümüklərinin qalıqlarından əldə edilən DNT-yə görə, bu ərazilər xarici aləmdən təcrid olunmuş sirli bir insan nəslinə ev sahibliyi edirdi.

Tədqiqatçılar "Yaşıl Sahara" adlanan yerdə yaşayan insanların ilk genomlarını təhlil ediblər. Onlar Liviyanın uzaq cənub-qərbindəki Takarkori adlı qaya sığınacağında dəfn edilən iki qadının sümüklərindən DNT əldə ediblər. Bu qalıqlar ən qədim dövrdə mumiyalanmış vəziyyətdə olublar.

"Nature" jurnalında dərc olunan tədqiqatın müəlliflərindən biri, Maks Plank Təkamül Antropologiya İnstitutunun arxeogenetiki Yohannes Krauze deyib: "O vaxt Takarkori indiki quraq səhra landşaftından fərqli, yaxınlıqda gölü olan sulu savanna olub.

Genomlar Takarkori fərdlərinin min illər boyu Sub-Sahara və Avrasiya populyasiyalarından ayrı yaşayan fərqli və əvvəllər naməlum insan nəslinin bir hissəsi olduğunu ortaya qoyur. Arxeoloji sübutlar göstərir ki, bu insanlar əhliləşdirilmiş heyvanları otarıblar. Ərazidən tapılan artefaktlara daş, ağac, heyvan sümüklərindən hazırlanmış alətlər, saxsı qablar, toxunmuş zənbillər və oyma heykəlciklər daxildir.

İki Takarkori fərdinin əcdadının təxminən 50 min il əvvəl Sub-Sahara populyasiyalarından ayrılmış Şimali Afrika nəslindən gəldiyi aşkar edilib. Bu, təxminən digər insan nəsillərinin qitədən kənara və Yaxın Şərqə, Avropaya və Asiyaya yayıldığı vaxta təsadüf edir.

Alimlər qeyd edirlər ki, 20 min il əvvəldən etibarən genetik sübutlar Şərqi Aralıq dənizindən qrupların axınını, bunun ardınca isə təxminən 8 min il əvvəl İberiya və Siciliyadan miqrasiyaların olduğunu göstərir. Bununla belə, hələ də məlum olmayan səbəblərə görə, Takarkori nəsli gözləniləndən daha uzun müddət təcrid olunmuş vəziyyətdə qalıb. Sahara yalnız bir neçə il əvvəl onların yaşayış yeri olaraq qalıb.

Sahara yenidən yaşayış üçün yararsız hala gələnə qədər onların nəsli varlığının çox hissəsi boyunca təcrid olunmuş vəziyyətdə qaldı. Afrikanın "Rütubət dövrü" adlanan daha isti və rütubətli iqlim mərhələsinin sonunda Sahara təxminən eramızdan əvvəl 3000-ci illərdə dünyanın ən böyük isti səhrasına çevrildi.

Afrikanın hüdudlarından kənara yayılan Homo sapiens növlərimiz Avrasiyanın bəzi yerlərində artıq mövcud olan Neandertal populyasiyaları ilə qarşılaşıb və onlarla birləşib və bu gün qeyri-afrikalı populyasiyalarda qalıcı bir genetik miras qoyub. Ancaq Yaşıl Sahara xalqı yalnız az miqdarda neandertal DNT-si daşıyırdı, bu da onların kənar populyasiyalarla az təmasda olduqlarını göstərir.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

## Gimnaziada: Azərbaycanın 10 yunan-Roma güləşçisindən 9-u medal qazanıb



Serbiyada keçirilən Gimnaziada İdman Oyunlarında yunan-Roma güləşi üzrə yarışlara start verilib.

Luçani şəhərində təşkil edilən yarışlarda Azərbaycanın 10 təmsilçisi mübarizə aparıb. Onlardan 9-u fəxri kürsüyə qalxıb.

Hüseyn Əmrahlı (38 kiloqram), İsfahan Həsənov (75 kiloqram), Zöhrab Səfərov (85 kiloqram) qızıl, Əli Cavadlı (41 kiloqram), Amin Məmmədov (44 kiloqram) gümüş, Qurban Məcnunov (52 kiloqram), Abdurahman Hüseynli (48 kiloqram), Eldəniz Allahverdiyev (57 kiloqram) və Əli Məmmədov (68 kiloqram) isə bürünc medal əldə ediblər.

Qeyd edək ki, sərbəst güləş yarışında Azərbaycan komandası 10 medal (2 qızıl, 3 gümüş və 5 bürünc) qazanıb.

## Azərbaycanın iki parabadmintonçusu Gimnaziadanın qızıl medalına layiq görülüb



Serbiyanın Ujiçe şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında parabadminton yarışlarının ilk günündə Azərbaycan təmsilçiləri Zəhra Salmanlı və Əli Məhərrəmov uğurla çıxış ediblər.

Z.Salmanlı birinci mərhələdə digər azərbaycanlı idmançı İlkin Bağırzadə ilə qarşılaşıb və qalib gəlib - 21:6, 21:12.

İkinci raundda braziliyalı rəqibini (21:8, 21:16) məğlub edən Zəhra həlledici görüşdə beninli idmançıya (21:5, 21:5) qalib gələrək qızıl medala sahib çıxıb.

Ə.Məhərrəmov isə ilk mərhələdə Benin (21:7:21:10), digər iki raundda isə Braziliya təmsilçilərini (21:13, 21:17), (21:18, 21:15) məğlub edərək qızıl medala yiyələnib.

## Gimnaziada: Azərbaycan qılıncoynadanı qızıl medal qazanıb



Serbiyanın Nova Varoş şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında qılıncoynatma yarışlarının ilk günündə Azərbaycan təmsilçiləri Aydan Atakişiyeva, Mirunay Abasova və Esnat Mirzəyeva mübarizəyə qoşulublar.

A.Atakişiyeva 1/8 finalda, E.Mirzəyeva isə 1/4 finalda məğlub olublar.

Mirunay Abasova isə finala kimi irəliləyib. O, həlledici raundda çinli idmançıya 15:11 hesabı ilə qalib gələrək qızıl medala sahib çıxıb.

Daha əvvəl bu yarışda Gəray Məmmədli bürünc medal qazanıb.

## Gimnaziada: Azərbaycanın paraüzgüçüsü bürünc medal qazanıb



Serbiyada keçirilən Gimnaziada İdman Oyunlarında paraüzgüçülük yarışları davam edir.

Serbiyanın Ujiçe şəhərində keçirilən Gimnaziada İdman Oyunlarında paraüzgüçülük yarışının Azərbaycan təmsilçisi Rəsul Süleymanov uğurla çıxış edib. İdmançı 50 metr məsafəyə brass üsulunda 0:55 saniyə nəticə ilə üçüncü olub və bürünc medala layiq görülüb.

Daha əvvəl Murad Məmmədov 200 metr məsafəyə sərbəst üsulla üzgüçülük yarışında 2:28 saniyə nəticə ilə gümüş medal qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

## Yəmən husiləri Qırmızı dənizdə ABŞ-ın təyyarədaşıyan gəmisinə zərbələr endirib



Yəmən husiləri Qırmızı dənizdə ABŞ-ın "Harry Truman" təyyarədaşıyan və onu müşayiət edən gəmilərə silsilə zərbələr endirib.

Bu barədə "Ənsar Allah" hərəkatının nümayəndəsi Yəhya Səriya bildirib.

Onun sözlərinə görə, qanadlı raketlər və pilotsuz təyyarələrdən istifadə edilən zərbələr bir neçə saat davam edib və ABŞ-ın Yəmənin husilərin nəzarətində olan ərazilərinə hücumlarının qarşısı alınıb.

Bundan əvvəl husilər Qəzza zolağında atəşkəs rejiminin pozulması səbəbindən İsrail ərazisinə və onunla əlaqəli gəmilərə dayandırılmış hücumların bərpa olunduğunu elan etmişdilər.

## ABŞ Yəmənin paytaxtına aviazərbələr endirib



ABŞ-ın Hərbi Hava Qüvvələri Yəmənin paytaxtı Sənaya aviasiya zərbələri endirib.

"Al-Masira" telekanalı aviazərbələr nəticəsində ölən və yaralananlar barədə məlumat yayıb.

Telekanalın məlumatına görə, 4 nəfər həlak olub. Şuub rayonunda yaşayış binasının vurulması nəticəsində 11-i qadın və biri uşaq olmaqla 25 nəfər xəsarət alıb. Yəmən Səhiyyə Nazirliyi də bu məlumatı təsdiqləyib

Martın 15-də Prezident Donald Tramp ABŞ ordusuna Yəməndəki husi üsyançılarına ağır zərbələr endirməyi əmr etdiyini bildirmişdi. "The New York Times" qəzeti isə aprelin 4-də yazıb ki, Birləşmiş Ştatlar indiyədək husilərin hərbi potensialına yalnız orta dərəcədə ziyan vura bilib.

## Yeni Zelandiya müdafiə xərclərini ÜDM-in 2 faizinə çatdırmaq niyyətindədir



Dünyada sürətlə artan gərginlik fonunda Yeni Zelandiya hökuməti bu gün növbəti dörd il ərzində müdafiə xərclərini 5 milyard dollar artıracağını və qarşıdakı səkkiz il ərzində xərcləri təxminən iki dəfə artıraraq ÜDM-in 2 faizinə çatdırmağı hədəflədiyini bildirib.

Bunu müdafiə xərclərini artırmağa çağıran Baş nazir Kristofer Lukson deyib.

O, Müdafiə Qabiliyyət Planının təqdimatı ilə bağlı mətbuat konfransında bildirib: "Yeni Zelandiya və dünyadakı müttəfiqlərimiz, tərəfdaşlarımız artıq əlverişli mühitdə deyillər".

Müdafiə Qabiliyyət Planı bunu təkmilləşdirmək üçün növbəti dörd il ərzində 5 milyard dollar yeni maliyyə vəsaitinin ayrılmasını nəzərdə tutur və may ayında elan ediləcək əsas xərclərin üstünə gəlir. Plan müdafiə qüvvələrinin növbəti dörd il ərzində zərbə imkanlarının artırılmasını, pilotsuz uçuş sisteminin alınmasını, helikopterlərin dəyişdirilməsi və freqatların xidmət müddətinin uzadılması kimi layihələrə sərmayə qoymasını ehtiva edir.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Cəfərov Faiq Cavanşir oğluna verilmiş SQ № 0022800 nömrəli və gizir Fərzəliyev Nəsir Yadigar oğluna verilmiş SQ № 0012433 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 140
Nüsxə 3663